

# Görkəmli şəxsiyyətlər Nizami Gəncəvi haqqında

Azərbaycana, Azərbaycan xalqına təkcə Nizami Gəncəvi kimi dahi bir şəxsiyyət bağışladığına görə Gəncə torpağı, Gəncə xalqı, gəncəlilər əbədi minnətdarlığa layiqdirlər.

* * *

Nizami Gəncəvi elə bir böyük şəxsiyyətdir ki, elə bir dahidir ki, onun yubileylərini nəinki on ildən, beş ildən bir, hər il qeyd etmək lazımdır.

***Heydər Əliyev,***
***Azərbaycan xalqının ümummilli lideri***

Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkkürünü elmi-fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Mütəfəkkir şairin məşhur “Xəmsə”si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq, dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur...

* * *

Biz Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin adlarını böyük iftixar hissi ilə çəkirik və onların əsərlərini oxuyaraq xalqımızın nə qədər dahi, müdrik və istedadlı xalq olduğunu bir daha dərk edirik. Eyni zamanda, dünya, bəşər qarşısında bununla fəxr edirik, öyünürük. Öyünməyə də haqqımız var. Çünki bu böyük insanlar nəinki bizim xalqımızı, bütün bəşəriyyəti, bəşər tarixini zənginləşdirən əsərlər yazmışlar.

* * *

Dünya şöhrətli ölməz “Xəmsə”nin müəllifi olan Nizami humanizm, insan şəxsiyyətinin azadlığı ideologiyası, onun iradəsinin taleyin qaçılmaz iradəsindən və təbiətin fövqündə duran qüvvələrin hökmündən asılı olmaması kimi böyük fəlsəfi təlimlərin banilərindən biridir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezideni***

Söz xəzinəsinə, mülkünə hakim,
Gəncə hünərvəri, o böyük alim.
Qızıl rəngli meyi əlinə aldı,
O içdi safını, xılt bizə qaldı.

Nizami hər sözü demiş birinci,
Qoymamış cilasız qalsın bir inci.

***Hindistan şair və musiqiçisi,***
***Əmir Xosrov Dəhləvi***

Lakin İsa nəfəs böyük Nizami,
Şeiri xətm etmişdir şirin kəlamı.
Məsnəvi tərzində o böyük ustad,
Hikmətlər yaradıb qoymuş gözəl ad.

***Şair, Əssar Təbrizi***

Billah ki, nə xoş demiş Nizami,
Bu babdə xətm edib kəlami…
Bir iş ki, qılır şikayət ustad,
Şagirdə olur rücui bidad.

***Şair, mütəfəkkir,***
***Məhəmməd Füzuli***

"Yeddi gözəl" əsəritək o gəncəli xəznədarın
Yüz xəzinə qiyməti var şeirindəki mənaların.

* * *

Gəncədə xəzinə saçdı gövhərdən,
Hindin tutisi də doydu şəkərdən.
Möcüz aləmində o vurdu aləm,
Sehr dünyasında bu vurdu qələm.

***Şair, musiqişünas, filosof və alim,***
***Əbdürrəhman Cami***

O Gəncə torpağında yatan müqəddəs insan,
Şeir xəzinələri yaratdı kəlamından.
Qiymətli incilərlə bəzədi bu aləmi,
Yoxdur o incilərin sayı ulduzlar kimi...
Nizami, bu dünyada kimi tay tutsan sənə,
Şeirinin qüdrətinə bərabər olmaz yenə.

***Şair, filosof,***
***Əlişir Nəvai***

Söz gövhərinin boyunbağısını heç kim Nizami kimi düzməyib. Haqqın minlərlə rəhməti onun ruhuna ki, həqiqətən, şeir onunla xətm olunub.

***Saib Təbrizi,***
***İran şairi***

Elmdir göylərə qaldıran səni,
Ağılla doldurdun öz xəzinəni.

Elmin sarayına gəlməmiş, inan,
Sənin tək zəkalı, hünərli insan.
Bu ağıl, bu bilik şahlığı ki, var,
Nizami haqqıyla zirvədə durar!

***Əsirəddin Əxsitəki***

Həkimi-mənəvi Şeyx Nizami Gəncəvinin böyüklüyünü və fəzilətlərini söyləməkdə dil acizdir. Zərifliyi, söz və söhbətilə məclis bəzəməkdə, ümumun rəyincə onun misli olmamışdır.

***Şair, yazıçı, alim, mütəfəkkir,***
***Abbasqulu ağa Bakıxanov***

Nizaminin bilik və kamalda böyüklüyü o dərəcədədir ki, yazmaqda qələm, söyləməkdə dil acizdir. Onun sözündə şirinlik, məlahət və gözəllik var. Odur ki, kamal sahibləri onu sevirlər.

***Fars-tacik alimi,***
***Dövlətşah Səmərqəndi***

Şair öz dövründə böyük hörmət sahibi, səmimi, ehtiramlı, mömin, heç bir səhvi olmayan bir insan olmuşdur.

***Fransız şərqşünası,***
***H.Bamate***

Yüksək şair dühasına malik olan nəcib ruhlu Nizami əsərlərində zərif eşq, dərin məhəbbət əlaqələrindən, sevgililərdən bəhs edir. Poemaları heyrətamiz dərəcədə gözəl, müxtəlif və rəngarəngdir. Nizaminin əxlaqi məsələlərə həsr edilmiş əsərlərində belə bədii səmimilik vardır.

***Məşhur alman şairi İ.V.Höte***

Nizaminin yaradıcılığı bəşəriyyətin bədii inkişaf tarixinin qızıl səhifəsidir.

***Dahi Azərbaycan dramaturqu,***
***Mirzə Fətəli Axundzadə***

Şeyx Nizami böyük şairlərdən birisi olub. Onun kimi fəsih, rəvantəb və şirinzəban şair dünya üzərinə az gəlibdir. Heç bir şair o lətafət və zəriflikdə söz deməyibdir...

***Maarifçi-pedaqoq, ədəbiyyatşünas, publisist,***
***Firudin bəy Köçərli***

Sənsən əbədiyyət dediyim sevgili dildar,
Daşlarda, çiçəklərdə, ürəklərdə adın var.
Aydanmı, günəşdənmi yarandın, de, nədən sən?

Xalqın gözü də, qəlbi də, vicdanı da sənsən.

***Azərbaycanın Xalq şairi,***
***Səməd Vurğun***

Dahi sənətkar Nizaminin yaşayıb-yaratdığı dövr Azərbaycan mədəniyyətinin, Azərbaycan ədəbiyyatının qızıl dövrü idi. XII əsrdə Azərbaycan ədəbiyyatı son dərəcə yüksəlmişdi. Bu dövrdə Əbül-Üla, Xaqani, Fələki Məhsəti, Qivami-Mütərrizi, Mücirəddin Beyləqani kimi böyük şairlər, bu dövrki ədəbiyyatımızın ən yüksək abidəsini yaradan Nizami kimi dahi sənətkarlar yetişmişdir.

**Akademik,**
**Həmid Araslı**

Öz əksini bizim əsərlərdə (fransız ədəbiyyatında) tapan bir neçə macəra Nizaminin "Yeddi gözəl", "Xosrov və Şirin" əsərlərindən götürülmüşdür.

**Bartelemi D'Erblo,**
**fransız şərqşünası**

Gəncəsinə baxdı məhəbbətlə Nizami,
Baş əydi əziz xalqına hörmətlə Nizami.
Hər kəlməsi, hər cümləsi bir canlı xəzinə,
Təkdir bütün aləmdə bu sərvətlə Nizami.

**Azərbaycanın Xalq şairi,**
**Süleyman Rüstəm**

Əgər dünyanın bütün dövrlərində yaşamış şairlərini bir cərgəyə düzmək lazım gəlsə, mən birinci yeri tərəddüd etmədən Nizami Gəncəviyə verərdim.

** *

Nizami təkcə böyük söz ustası olaraq qalmamışdır. O, xoşbəxt gələcək döyüşçüsü olmuşdur. Sözün tam mənasında o, dahi insan, böyük humanist və həqiqi xalq şairi idi.

***

Nizami, bəşəriyyətin min illərlə düşünüb arzuladığı azadlıq, bərabərlik, sülh, demokratiya, humanizm, qadın azadlığı, əmək vasitəsiylə yüksəliş, doğru-düzgünlük haqqında hamıdan əvvəl və müfəssəl məlumat vermişdir. Biz daha ondan nə istəyə bilərik?

**Akademik, şərqşünas,**
**Bertels**

Nizami dühası Azərbaycanın poeziya səmasında doğan günəş kimi öz şüaları ilə dünyamızı bu gün də nurlandırır.

**Şərqşqnas alim,**
**İ.S. Brakinski**

Bəşəriyyət tarixində və bütün dünyada hələ indiyə qədər Nizamiyə bərabər başqa bir şair yaranmamışdır.

**Şərqşünas, dilçi,**
**N.Y.Marr**

Azərbaycan xalqının şərəfi və iftixarı olan Nizami Gəncəvi dünya ədəbiyyatında elə nəhəng simalardan biridir ki, onun yaradıcılığı bəşəriyyətin bədii təfəkkür salnaməsinin qızıl fonduna daxildir.

***

Nizami humanizmi insanın uca duyğularını öldürən, alçaldan, nəcib hisslərdən məhrum edən hər şeyi pisləyir, onu mənəvi cəhətdən yüksəldir, insanı əhatə edən mühiti, onun daxili aləminin dəyişməsini zərurət kimi irəli sürür.

**Azəbaycanın  Xalq yazıçısı,**
**Mirzə İbrahimov**

Dünya dühalarının birinci cərgəsində duran Nizamini biz qabaqcıl düşüncənin və əxlaqın müjdəçisi kimi əzizləyirik.

**Rus yazıçısı,**
**Nikolay Tixonov**

Bəşəriyyətin böyük oğlu, Azərbaycan xalqının coşqun ilhamlı nəğməkarı Nizami Gəncəvi-nin qarşısında baş əyirəm.

**Qırğız yazıçısı,**
**Çingiz Aytmatov**

Bu torpaq üstündə qalxan Nizami,
Bəşərin ən uca fikir dağıdır.

**Azərbaycanın Xalq şairi ,**
**Məmməd Araz**

Şair öz dövründə böyük hörmət sahibi, səmimi, ehtiramlı, mömin, heç bir səhvi olmayan bir insan olmuşdur.

**Fransız şərqşünası,**
**H.Bamate**

Yüksək şair dühasına malik olan nəcib ruhlu Nizami əsərlərində zərif eşq, dərin məhəbbət əlaqələrindən, sevgililərdən bəhs edir. Poemaları heyrətamiz

dərəcədə gözəl, müxtəlif və rəngarəngdir. Nizaminin əxlaqi məsələlərə həsr edilmiş əsərlərində belə bədii səmimilik vardır.

**Alman şair-dramaturqu,**
**Yohan Volfqanq Höte**

Nizami şeiri insanlığa ülvi məhəbbət, zəhmətə hörmət, haqsızlara barışmaz kin və nifrət, ədalət, xeyirxahlıq, sədaqət hiss və duyğuları aşılayır, nəsilləri yüksək ideallar uğrunda mübarizəyə, qəhrəmanlığa sövq edir. Nizami sənətinin ölməzliyi, sirri də bax bundadır.

**Ədəbiyyatşünas, tənqidçi,**
**Azadə Rüstəmov**